Fevralın 18-də Təhsil Nazirliyi yanında İctimai Şuranın və "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə “Təhsilə ictimai baxış” silsiləsindən növbəti müzakirə təşkil olunacaq.

"Məktəb-valideyn tərəfdaşlığı" mövzusuna həsr olunacaq müzakirənin əsas məqsədi bu istiqamətdə mövcud vəziyyəti öyrənmək, məktəb və valideyn arasında tərəfdaşlığın səmərəli qurulması və inkişaf etdirilməsi yönündə maraqlı tərəflərin fikirləri ilə tanış olmaq, mövcud tərəfdaşlığın modelinin yeni formalarını hazırlamaqdır.

Müzakirədə Təhsil Nazirliyinin əməkdaşları, nazirlik yanında İctimai Şuranın üzvləri, təhsil ekspertləri, məktəb direktorları, valideyn və müəllimlər, o cümlədən QHT nümayəndələri, beynəlxalq təşkilatların əməkdaşlarının iştirakı nəzərdə tutulur.

Müzakirə zamanı nazirlik yanında İctimai Şura və “T-Network” tərəfindən mövzu ilə bağlı valideynlər arasında aparılmış sorğunun nəticələri də təqdim olunacaq. Həmçinin, Türkiyənin TED Universitetinin təhsil fakültəsinin dekanı Yüksel Kavak Türkiyə təcrübəsi barədə təqdimatla çıxış edəcək.

Qeyd edək ki, "Təhsilə ictimai baxış" silsilə müzakirələrin təşkilində məqsəd bütün maraqlı tərəflərlə səmərəli dialoq qurmaq və mövcud vəziyyəti yaxşılaşdırmaq üçün reallıqları müzakirə etmək, ictimai rəyi öyrənmək və təhsildə inkişafın mümkün istiqamətlərini nəzərdən keçirməkdir.